

***Redaktorlardan***

***Hörmətli oxucular, bu il Azərbaycanda və dünyada xalqımızın dahi şəxsiyyəti, dövlətinin və xalqının azadlığı, müstəqilliyi uğrunda əzmlə mübarizə aparmış, Azərbaycanın ikinci müstəqilliyinin böyük memarı, hələ sağlığında xalqın Ulu öndəri adını qazanmış Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi qeyd edilir. Həmçinin bu il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2022 ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında Heydər Əliyev İli elan olunmuşdur.Bu tarixi hadisələr münasibəti ilə bütün ölkədə və o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasında tədbirlər keçirilir. Müxtəlif sahə alimləri yeni-yeni elmi tədqiqat əsərləri ilə Ulu öndər irsinin zəngin kitabxanasını genişləndirirlər.***

***Türkiyənin nüfuzlu elmi nəşrlərindən olan Akademik Tarix və Düşüncə jurnalının bu xüsusi sayı da Ulu öndər Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi və Azərbaycan Respublikasında Heydər Əliyev İlinə həsr olunmuşdur. Akademik Tarix və Düşüncə jurnalının Xüsusi sayı Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyevin Həyatını, Fəaliyyətini, İrsini əks etdirən bioqrafiyasının xronologiyası əsasında yazılmış "Keşməkeşli və Şərəfli Ömür " məqaləsi ilə başlayır.***

***Akademik Tarix və Düşüncə jurnalının Ulu öndər Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi və Azərbaycan Respublikasında Heydər Əliyev İlinə həsr olunmuş bu xüsusi sayında ilk məqalə AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin ''Heydər Əliyevin Müstəqil Dövlətçilik İdealları Və Müasir Dövr'' məqaləsidir. Xüsusi sayda sonra tarix elmləri doktorları Sevinc Abbasovanın ''Ulu Önder Haydar Aliyev ve Azerbaycan Kadınlarının Toplumdaki Rolünün Genişletilmesi Stratejisi'', Həcər Verdiyevanın "Tarihsel Gerçekler Düzeyinde: Ermeni Ayrılıkçılığına Karşı Mücadelede Ulusal Lider***

*Haydar Aliyev", Şikar Qasımov və Flora Qasımovanun "Heydər Əliyev Siyasəti. Müstəqil Azərbaycanda İnsan Və Vətəndaş Hüquqları Məsələləri", Röfət Quliyev və Əli Quluzadənin "Heydər Əliyev və Azərbaycan Respublikasının Milli Gömrük Siyasətinin Formalaşması (1993-2003-cü İllər)", tarix üzrə fəlsəfə doktorları Günel Aslanlının "Azərbaycan Respublikasında İdmanın İnkişaf Perspektivlərinin Qurulmasında Heydər Əliyev Siyasətinin Rolu", İlham Həsənovun "Heydər Əliyev və Azərbaycanda Tibb Elmi", Saida Babayevanın "Arxeologiya Elminin İnkışafında Heydər Əliyev Mərhələsi (Gəncəbasarda Aparılan Arxeoloji Materallar Əsasında)", fəlsəfə elmləri doktorları: Xatirə Quliyevanın "Heydərizm Konsepsiyası (Problemə Giriş)", Ziba Ağayevanın "Haydar Aliyev ve Stratejik Gelişimimizin Temelinde Milli Manevi Değerlerin Yeri ve Rolü", Lalə Mövsümovanın "Концепция Гайдера Алиева об Участии и Роли Женщин в Диалоге Культур", Məmməd Rzayevin "Azərbaycan Xalqının Ulu Öndəri, Tarixi Şəxsiyyət Heydər Əliyevin Yolu", Yusif Hüseynovun "Ümummilli Lider Heydər Əliyevin Gələcəyə İstiqamətlənmiş Siyasi Doktrinası", Məmməd Əliyevin "Общенациональный Лидер Гейдар Алиев и Азербайджанская Модель Мультикультурализма", Eyyub Kərimovun "Azerbaycancılık İdeolojisinin Kurucusu Hayder Aliyev"; fəlsəfə üzrə fəlsəfə doktorları: Habib Mirzayevin "Haydar Aliyev'in Fikirleri Milli ve Manevi Değerlerimizin Gelişimine Önemli Bir Katkıdır", Abbas Əhmədovun ''Heydər Əliyevin Siyasi Strategiyası Sülh və Əməkdaşlıqdır"; filologiya üzrə fəlsəfə doktorları Zümrüd Mənsimovanın "Heydər Əliyev İrsində Milli-Mənəvi Dəyərlər Kontekstində Folklor Faktoru", Aynur Novruzovanın "Heydər Əliyev və Gəncə Ədəbi Mühiti" və başqa bir çox tanınmış Azərbaycan aliminin müxtəlif mövzulu elmi məqalələri təqdim olunur.*

*Akademik Tarix və Düşüncə jurnalının Ulu öndər Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi və Azərbaycan Respublikasında Heydər Əliyev İlinə həsr olunmuş bu xüsusi sayının məqalələrini AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun Multikulturalizm və Tolerantlıq Fəlsəfəsi şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru Xatirə Quliyeva toplayıb tərtib etmişdir. Xüsusi sayın Redaktorları fəlsəfə elmləri doktoru Xatirə Quliyeva və Akademik Tarix və Düşüncə jurnalının baş redaktoru Hakan Yılmazdır.*

*Hakan Yılmaz*

*Akademik Tarih ve Düşünce Dergisi*

*Genel Yayın Yönetmeni*

*Xatirə Quliyeva*

*Fəlsəfə elmləri doktoru*